# Birinci Qarabağ müharibəsinin şəhidi Şəkidə dəfn edilib

**Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilənlərdən biri də Səbuhi Yamən oğlu Süleymanovdur.**



AZƏRTAC xəbər verir ki, Birinci Qarabağ müharibəsində naməlum şəhid kimi Tərtərdə şəhidlər qəbiristanlığında dəfn edilən Səbuhi Süleymanovun nəşinin qalıqları dünən Şəkinin Cəfərabad kəndinə gətirilib.

Şəhidin nəşi əvvəlcə ailəsinə təhvil verilib. Ata yurdunda şəhid üçün vida mərasimi keçirilib. Mərasimdə yüzlərlə kənd sakini, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Qeyd edək ki, Səbuhi Süleymanov 1972-ci ildə anadan olub. İkiillik hərbi xidmətdən sonra döyüşlərə könüllü qatılıb. Ailədə üç övlad olublar. 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.12.